# GƏNCƏ-DAŞKƏSƏN VƏ QAZAX-TOVUZ İQTİSADİ RAYONLARININ TİBBİ-EKOLOJİ ŞƏRAİTİNİN İNSAN SAĞLAMLIĞINA TƏSİRİNİN TƏDQİQİ

**S.İ. Rzayeva**
coğrafiya üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
solmaz-isaq@mail.ru

Məqalədə sərhədyanı ərazilər olan Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarının tibbi-ekoloji şəraitinin insan sağlamlığına təsirinin tədqiqi şərh olunur. 30 il müddətində Ermənistanın Azərbaycan torpaqlarını təcavüzdə saxlaması nəticəsində işğal olunmuş ərazilərdə və sərhəd rayonlara da təsirini göstərən müxtəlif texnogen fəaliyyət və döyüş əməliyyatlarının aparılması ətraf mühitə ciddi ziyan vurulması, vahid ekosistemin dağılma prosesinin getməsi və bu prosesin illər ərzində beynəlxalq ekoloji təşkilatların nəzarətindən kənarda qalması bölgədə və ətraf ərazilərdə həmçinin böyük radioekoloji fəlakətin başlanğıcına aid problemlər təhlil olunur. Ərazidə xəstəliklərin lokolaziyasına görə geniş yayılmasında tibbi-ekoloji şəraitin rolunun geniş olması göstərilmişdir.

***Açar sözlər:*** *tibbi-ekoloji, radioekoloji, ekoloji düşüncə, texnogen fəaliyyət, vahid ekosistem, sərhədyanı ərazilər, radiasiya, antropogen amil.*

**Giriş.** Coğrafi mühitin insan səhhətinə təsiri və onun proqnoz sahəsinə dair aparılan tədqiqatlarının çərçivəsində coğrafiya elmi ilə tibb emi arasında bağlılıq yaradan problemlərinin təhlili müasir dövrdə aktualdır. Bu məqsədlə Azərbaycanda müxtəlif istiqamətli tibbi-coğrafi araşdırmalarının elmi-praktiki əhəmiyyətini nəzərə almaq məqsədəuyğundur.

İnsan səhhətinə təsir edən müxtəlif formada həyat tərzinin tənzimlənməsində tibbi coğrafiya elminin qarşısında bir sıra

metodoloji problemlərin öyrənilməsi tələb olunur. Yaşadığımız dövrdə ətraf mühit amili və ətraf mühitin insan həyatına geniş təsiri danılmaz bir faktdir. Təbii ki, çirklənmiş ətraf mühitin zərərindən qaçmaq mümkün deyil. Əlverişsiz ətraf mühit insanların sağlamlığına birbaşa mənfi təsirini göstərməkdədir. Bu da öz növbəsində insanın sağlamlığına mane olan əsas maneələrdən biridir.

**Tədqiqatın şərhi.** Ətraf mühit və antropogen amillərin mənfi təsiri nəticəsində insanların səhhətlərində müxtəlif problemlər yaranır. Bu təsirlər əsasən çirklənmiş su, ərzaq və atmosfer, karbon qazı, yüksək radiasiya və digər vasitələrlə baş verir. Davamlı olaraq ekoloji vəziyyəti gərgin olan komponentlərdən istifadə və radiasiyaya məruz qalmaq xəstəliklərin yaranmasına şərait yaradır. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, dünyada baş verən xəstəliklərin 24%-i və ölüm hallarının (erkən ölümlərin) 23%-i ətraf mühit amillərinin təsiri nəticəsində baş verir. Uşaq ölümlərində isə bu rəqəm daha çox, 36% səviyyəsindədir.

Respublikamızda son illər ərzində əldə edilmiş iqtisadi inkişaf ətraf mühitin mühafizəsi, ekoloji problemlərin həlli və insan həyatının təhlükəsizliyinin təmin edilməsini dövlət siyasətinin prioritet istiqamətlərinə çevirməyə imkan yaratmışdır. Ölkədə əhalinin rifahının və həyat təhlükəsizliyinin yüksəldilməsi və sağlamlığının qorunması üçün irimiqyaslı dövlət proqramları həyata keçirilmişdir. Xalqın birliyi, müzəffər ordumuzun rəşadəti nəticəsində azad edilmiş Qarabağ ərazisində və sərhəd rayonlarında məlum ekoloji vəziyyətin, radiasiya problemlərinin həlli isə uzun zaman tələb edəcək.

Sərhəd rayonları kimi Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarının davamlı inkişafının təmin edilməsinin əsas istiqamətlərindən biri əhalinin həyat səviyyəsinin yüksəldilməsi, orta

ömür müddətinin uzadılması və sağlamlığının qorunmasıdır. Bunun üçün iqtisadi rayonlarda ekoloji vəziyyət, səhiyyə obyektlərinin səmərəli ərazi təşkili və əhalinin sağlamlığı sahəsində aparılan tədqiqatların genişləndirilməsidir. Bu zaman, xəstəliklərin yayılmasına ekocoğrafi mühitin təsirinin öyrənilməsi və kompleks tibbi-ekoloji qiymətləndirilməsi işin aktuallığını əks etdirir.

30 il müddətində Ermənistanın Azərbaycan torpaqlarını təcavüzdə saxlaması nəticəsində işğal olunmuş ərazilərdə və sərhəd rayonlara da təsirini göstərən müxtəlif texnogen fəaliyyət və döyüş əməliyyatlarının aparılması ətraf mühitə ciddi ziyan vurmuşdur. Vahid ekosistemin dağılma prosesinin getməsi və bu prosesin illər ərzində beynəlxalq ekoloji təşkilatların nəzarətindən kənarda qalması bölgədə və ətraf ərazilərdə həmçinin böyük radioekoloji fəlakətin başlanğıcını qoymuşdur. Müharibə anlayışı təkcə insanlar üçün deyil, həm də təbiət üçün öldürücü bir amildir.

Müharibələrin ətraf mühitə təsiri insanın təbiətə təsirinin ən güclü və çirkin formasıdır. İstənilən müharibənin ekoloji fəsadlarının aradan qaldırılması üçün uzun illər tələb olunur. Müharibənin ən acı nəticələri dağıntılar və insan ölümləridirsə, bölgədə və ətraf ərazilərdə radioekoloji vəziyyətin gərginləşməsi ilə əlaqədar yarana biləcək fəsadları bununla müqayisədə daha dəhşətli olan "tədrici ölüm" adlandırmaq olar. Ekspertlərin fikrincə müharibə zamanı istifadə olunan müxtəlif tipli silahlar, bəsitləşdirilmiş uran torpağın radioaktiv çirklənməsinə gətirib çıxarır ki, bu da yerli əhali arasında bədxassəli törəmələr və müxtəlif genetik xəstəliklərin əmələgəlmə riskini dəfələrlə artırır.

Bildiyimiz kimi təbii radiasiya insanları bütün həyatı boyu müşayiət edir. İnsan sağlamlığı üçün ən təhlükəli radiasiya mənbəyi təbii radioaktiv qaz olan radon və onun parçalanma məhsullarıdır.

Mütəxəssislərin fikrinə görə radon qazı insanlarda ağciyər xəstəliyinin yaranmasının siqaretçəkmədən sonra ikinci səbəbidir. Radiasiyadan Qorunma üzrə Beynəlxalq Komissiya ekspertlərinin rəyinə görə, radonun təsiri uşaq və 20 yaşına qədər gənclərin sağlamlığı üçün daha çox təhlükəlidir. Yuxarıda qeyd etdiyimiz kimi Qarabağda gedən müharibələrin törətdiyi fəsadlar sərhəd rayonlarımızda da iz qoyur. Ekoloji vəziyyətin hərtərəfli gərginləşməsinə, xüsusilə də atmosferin çirklənməsinə, radiasiya bolluğunun yaranmasına səbəb olur. Bu da sərhəd rayonlarında əhalinin xəstəlik göstəricilərində özünü göstərməkdədir.

Yuxarıda göstərdiyimiz səbəblərdən 2022-ci ilin statistik göstəricilərinə görə əhalinin əsas xəstəlik sinifləri üzrə xəstələnməsi Gəncə-Daşkəsən iqtisadi rayonunda ayrı-ayrı inzibati rayonlar üzrə ümumi xəstəliklər arasında tənəffüs orqanları xəstəlikləri daha üstünlük təşkil edir. Gəncə, Goranboy, Göygöl rayonları xəstəliyə görə fərqlənirlər.

Cədvəl 1

Gəncə-Daşkəsən iqtisadi rayonunda ayrı-ayrı inzibati rayonlar üzrə xəstəlik göstəriciləri (2022-ci il)

| Rayon | Xəstəliklərin cəmi | Yeni törəmələr | Qan dövranı xəstəlikləri | Tənəffüs orqanları xəs. | Həzm sistemi xəs. |
|---|---|---|---|---|---|
| Gəncə | 73 956 | 203 | 8 740 | 16 437 | 6 509 |
| Naftalan | 4 364 | 47 | 498 | 2 137 | 300 |
| Daşkəsən | 3 620 | 12 | 478 | 1 426 | 190 |
| Goranboy | 18 229 | 42 | 2 470 | 6 478 | 1 267 |
| Göygöl | 16 873 | 95 | 817 | 5 026 | 724 |
| Samux | 6 583 | 100 | 334 | 3 481 | 36 |




Diaqram 1. Gəncə-Daşkəsən iqtisadi rayonunda ayrı-ayrı inzibati rayonlar üzrə xəstəlik göstəriciləri (2022-ci il)




Diaqram 2. Gəncə şəhərində xəstəliklərin payı 2022-ci il üçün

Təkcə Gəncə şəhəri üzrə yenirörəmələr 203 nəfər, qan dövranı xəstəlikləri 8740 nəfər, tənəffüs orqanları 16437 nəfər, həzm sistemi xəstəlikləri 6509 nəfər olmuşdur.

Qazax-Tovuz iqtisadi rayonunda da ayrı-ayrı inzibati rayonlar üzrə ümumi xəstəliklər arasında tənəffüs orqanları xəstəlikləri daha üstünlük təşkil edir. Belə ki, Qazax, Şəmkir, Tovuz rayonları xəstəliyə görə fərqlənirlər.

Cədvəl 2

Qazax-Tovuz iqtisadi rayonunda da ayrı-ayrı inzibati rayonlar üzrə xəstəlik göstəriciləri (2022-ci il)

| Rayon | Xəstəliklərin cəmi | Yeni törəmələr | Qan dövranı | Tənəffüs orqanları | Həzm sistemi |
|---|---|---|---|---|---|
| Ağstafa | 10 492 | 164 | 475 | 6 109 | 335 |
| Gədəbəy | 18 397 | 79 | 630 | 8 201 | 1 713 |
| Qazax | 18 227 | 112 | 1 043 | 9 953 | 685 |
| Şəmkir | 36 684 | 285 | 9 199 | 8 954 | 5 095 |
| Tovuz | 50 985 | 244 | 5 607 | 23 720 | 5 158 |




Diaqram 3. Qazax-Tovuz iqtisadi rayonunda da ayrı-ayrı inzibati rayonlar üzrə xəstəlik göstəriciləri

Təkcə Tovuz rayonu üzrə yenitörəmələr 244 nəfər, qan dövranı xəstəlikləri 5607 nəfər, tənəffüs orqanları xəstəlikləri 23720 nəfər, həzm sistemi xəstəlikləri 5158 nəfər olmuşdur.

Cədvəl və diaqramlardan göründüyü kimi hər iki sərhədyanı iqtisadi rayonda tibbi ekoloji çirklənmənin təsiri nəticəsində yaranan xəstəliklər lokalizasiyasına görə fərqli xüsusiyyətlərə malikdir. Burada insan orqanizminə təsir göstərən xüsusilə antropogen amillər xəstəliklərin əmələgəlməsində birbaşa rol oynayır. Bu da əhali arasında xəstəliklərin cavanlaşmasına səbəb olur.



Diaqram 4. Tovuz rayonunda xəstəliklərin payı 2022-ci il üçün

İnzibati rayonlar üzrə Gəncə və Tovuz rayonlarında tənəffüs orqanları xəstəliklərinin üstünlük təşkil etməsini misal göstərmək olar.

**Nəticə.** Məlum səbəblərdən ətraf mühitin tibbi ekoloji çirklənməsi Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında yaşayan əhalinin sağlamlığı üçün ciddi təhlükə yaradır. Ərazidə çirklənmənin əsas mənbəyi antropogen amillər olaraq ekoloji cəhətdən əlverişli olmayan şərait yaratdığından xəstəliklərin yayılmasına və ölüm hallarının çoxalmasına səbəb olur. Bu isə istehsal potensialına mənfi təsir göstərərək iqtisadi inkişafa və əhali artımına ciddi maneə yaradır. Bu problemlər isə cəmiyyətin sosial-iqtisadi inkişafını ləngidir. Məsələn, ətraf mühitin çirklənməsinin əhalinin vaxtsız vəfatı və ya uşaq ölümlərinin səviyyəsi, həmçinin istehsal potensialı ilə əlaqəsi danılmazdır. Əhalinin vaxtsız vəfatı istehsal potensialını aşağı salır. Bu, isə Ümümi Daxili Məhsulda ciddi itki deməkdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Ekologiya və təbii sərvətlər nazirliyinin məlumat materialları əsasında erməni silahlı təcavüzü və işğalı nəticəsində ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərlərin qiymətləndirilməsi. Bakı: Elm və təhsil. 2015, 252 s.

2. Eminov Z.N. Ətraf mühitin qorunması davamlı inkişafın əsas istiqamətlərindən biridir // Azərbaycan Coğrafiya Cəmiyyəti BDU filialının əsərləri. Bakı: BDU, 2009, s. 637- 642.
3. Eyyubova Z.İ. Daşkəsən və Gədəbəy rayonlarında texnogen landşaftlarda torpaqbərpa tədbirləri. Bakı: 2017. 223 s.
4. Həsənov T. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının sosial-iqtisadi nəticələri: Elmi populyar vəsait / Elmi red.: prof. A.M.Quliyev. Bakı: Çaşıoğlu, 2002. 116 s.
5. Xəlilov Ş. A. Azərbaycanın ekocoğrafi problemləri, Bakı: 2006.
6. Məmmədov R.A., Məmmədli V.C. Ətraf mühitin qorunması statistikası. Bakı: 2003. 369 s.
7. Məmmədov Q.Y, Xəlilov İ.M, Ekologiya, ətraf mühit və insan. Bakı: Elm, 2006. 205 s.
8. Rzayeva S.İ. Ətraf mühitin keyfiyyət göstəricilərinin insan sağlamlığında rolu // Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU filialinin əsərləri. Bak: 2008. s. 245-251.
9. Rzayeva S.İ. Landşaft kompanentlərinin keyfiyyətinin insan sağlamliğina təsiri // Azərbaycan Coğrafiya cəmiyyətinin əsərləri. XIII cild. Bakı: 2008. s. 204-208.

## STUDYING THE INFLUENCE OF MEDICAL-ECOLOGICAL CONDITIONS ON HUMAN HEALTH IN GANJA-DASKASEN AND KAZAKH-TOVUZ ECONOMIC REGIONS

The article describes the study of the influence of medical and environmental conditions on the health of the population of the Ganja-Dashkesan and Gazakh-Tovuz economic regions, which are border territories. As a result of the 30-year occupation of Azerbaijani lands by Armenia, the implementation of various anthropogenic activities and military operations in the occupied territories and border areas, which caused serious damage to the environment, the process of disintegration of a single ecosystem began and the fact that this process for many years remained outside the control of international environmental organizations in the region and adjacent territory, problems associated with the onset of a major radioecological disaster are also analyzed in the territories. In connection with the localization of diseases in the territory, the role of medical and environmental conditions in their wide spread is shown.

***Keywords**: medical-ecological, radioecological, ecological thinking, anthropogenic activity, single ecosystem, border areas, radiation, anthropogenic factor.*